***Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra fikir plüralizmi, söz və mətbuat azadlığının inkişafı üçün əlverişli zəmin yarandı. Medianın inkişafına mane olan süni əngəllər və məhdudiyyətlər aradan qaldırıldı, qanunvericilik bazası müasir dövrün çağırışları nəzərə alınaraq təkmilləşdirildi, dünya standartlarına uyğunlaşdırıldı, mətbuat üzərində dövlət nəzarəti ləğv olundu. Azərbaycan Prezidentinin imzaladığı fərman və sərəncamlar azad sözə və onun daşıyıcılarına münasibəti kökündən dəyişdi, medianın demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə təsir imkanları genişləndi.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# “Media haqqında” qanun layihəsi mükəmməl fəaliyyət sənədidir

Etiraf edək ki, ulu öndər Heydər Əliyev “Mən Azərbaycanda söz və mətbuat azadlığının təminatçısıyam və heç kimə imkan verməərəm ki, bu prinsiplər pozulsun” deməklə, həm demokratik dəyərlərə sadiqliyini bəyan etdi, həm də cəmiyyətdə aşkarlığın, şəffaflığın, sosial ədalətin bərqərar olmasında mətbuatı ən fəal təsisatlardan birinə çevirdi.

1999-cu ildə qəbul edilən “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində ölkəmizdə kütləvi informasiya vasitələrinin azadlığının təsbit olunması qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən verilən təminata əsaslanırdı.

Azərbaycan Avroatlantik məkana inteqrasiya yolunu tutduqdan sonra söz və mətbuat azadlığının təmin olunması sahəsində bir sıra beynəlxalq konvensiyalara və sazişlərə qoşuldu.

KİV haqqında qanunun qəbulundan ötən 22 il ərzində həmin qanuna 79 dəfə dəyişiklik olunub. Bu da təbiidir. Çünki XX əsrin 90-cı illərindən başlayaraq, sürətlə inkişaf edən internet və mobil texnologiya vasitəsilə istifadəçilərin zamandan və məkandan asılı olmayaraq sərbəst formada interaktiv ünsiyyətdə olduqları yeni bir media ortamı meydana gəlib. Ənənəvi media artıq yeni çağırışlarla üzləşib, internet şəbəkəsinin əsas kütləvi informasiya kanalına çevrilməsi ilə KİV-in internet məkanına keçidi sürətlənib. Bu proses təkcə çap mediası sferasında deyil, həm də ənənəvi TV kanallarının internet yayımının genişlənməsində müşahidə olunur.

Çağdaş dövrdə yüksəktezlikli internetin, rəqəmsal televiziyanın geniş yayılması informasiyanın ötürülmə infrastrukturunu dəyişdi və informasiyanın yüksək sürətlə yayıldığı yeni qlobal informasiya məkanı yarandı. Həm ənənəvi, həm də yeni media resurslarında informasiya axınının güclənməsi bütün dünyada yeni situasiya formalaşdırdı: Artıq istənilən sahələr üzrə informasiyanın əlçatanlığı və həcmi son dərəcə böyükdür. Eyni zamanda, informasiya qlobal şəbəkədə toplanıb saxlandığına görə məlumat itkisi çox azdır.

Bir sözlə, biz kütləvi informasiya vasitələrinin yenidən formatlandığı unikal zamanda yaşayırıq. Yeni texnologiyalar meydana gəlir və bu proses yeni çağırışlar doğurur. Nəticədə, bu sferanın sürətli inkişafı baş verən hadisələrin qanunvericilik yolu ilə tənzimlənməsini sürətləndirir.




“Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Prezident İlham Əliyevin 12 yanvar 2021-ci il tarixli Fərmanına uyğun olaraq Medianın İnkişafı Agentliyinin yaradılması və “Media haqqında” qanun layihəsinin hazırlanmasına dair tapşırıq verilməsi dövlətin medianın fəaliyyətini tənzimləyən mütərəqqi bazanın formalaşdırılmasına yönəlik siyasi iradəsinin təcəssümüdür.

Bu günlərdə Milli Məclisin müzakirəsinə təqdim olunmuş “Media haqqında” qanun layihəsi media sahəsində fəaliyyətin təşkilatı, hüquqi və iqtisadi əsaslarını, informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.

Qanun layihəsinin 1-ci fəslində əsas anlayışların normativ-hüquqi aktlar ilə müəyyən olunmuş mənalarının izah olunması sənəddən istifadəni, onun daha yaxşı dərk olunmasını asanlaşdırır.

Qanun layihəsi, şübhəsiz ki, ölkə mediasının qarşısında yeni imkanlar açmaqla yanaşı, dövlət – media münasibətlərinin tənzimləyici elementlərindən biri kimi hüquqi mənzərənin dəqiqləşməsində də önəmli rol oynayacaq.

Media sahəsində fəaliyyətin qanunvericilik bazasını təşkil edən qanunlar, normativ-hüquqi aktlar, Azərbaycan Respublikasının Konstitusiyası, “Məlumat azadlığı haqqında”, “Fərdi məlumatlar haqqında”, “İnformasiya əldə etmək haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının qanunları və respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələr milli informasiya məkanında ciddi və peşəkar jurnalistikanın formalaşmasına, sağlam rəqabət mühitinin bərpa olmasına əlverişli zəmin yaradaraq, cəmiyyət və media, dövlət və media arasında qarşılıqlı etimadın güclənməsinə yetərli təsir göstərmişdir.

“Media haqında” qanun layihəsi media subyektlərinin dəqiq təsnifatını təsbit etməklə yanaşı, jurnalistin sosial portretinə də aydınlıq gətirir.

Qanunun tətbiq dairəsi genişdir və ölkə ərazisində təsis olunmuş bütün media subyektlərinə, redaksiyalara, onların məhsullarına, həmçinin respublikamızın hüdudlarından kənarda olan, lakin fəaliyyəti ölkəmizin ərazisinə və əhalisinə istiqamətlənmiş bütün media subyektlərinə, ölkə hüdudlarından kənarda yaradılan media məhsullarının Azərbaycan ərazisinə yayılan hissəsinə, habelə jurnalistlərə şamil edilir.

Qanunun 3.2.1-ci maddəsində bildirilir ki, bu qurum media subyekti hesab edilməyən şəxslər (jurnalistlər istisna olmaqla) tərəfindən yayılan informasiyaya şamil olunmur. Lakin nəzərə almaq lazımdır ki, bu müddəa informasiyanı yayan şəxslər və sosial şəbəkə istifadəçiləri tərəfindən düzgün anlaşılmaya bilər. Belə ki, düzgün olmayan, yanlış və cəmiyyət üçün zərərli informasiyanın yayılmasına qəsdən və ya bilməyərəkdən yol verən şəxslər də qanun qarşısında məsuliyyət daşıyırlar. Ona görə də 3.2.1-ci maddəsindən sonra 3.2.1.1. bəndinin də əlavə olunmasını təklif edirəm:

3.2.1.1. Media subyekti hesab edilməyən şəxslər düzgün olmayan, zərərli, böhtan xarakterli informasiyanın yayılmasına görə Azərbaycan Respublikasının digər müvafiq qanunları qarşısında məsuliyyət daşıyırlar.

Media sahəsində dövlətin vəzifələrinin təsbit olunduğu 4-cü maddədə fikir müxtəlifliyinin, fəaliyyət azadlığının təmin edilməsi, istifadəçilərin zərərli informasiyanın təsirlərindən qorunması, media subyektlərinin və jurnalistlərin fəaliyyətinin stimullaşdırılması, media məkanının təhlükəsizliyinin təmini istiqamətində mühüm müddəaların əksini tapması təqdirəlayiqdir.

Media azadlığından bəhs edilən 5.2. maddəsinin aşağıdakı redaksiyada verilməsini təklif edirəm:

5.2. Media sahəsində dövlət senzurası, habelə funksiyasına kütləvi informasiya üzərində nəzarətin həyata keçirilməsi ilə bağlı müəyyən vəzifələr daxil olan dövlət orqanlarının, təşkilatlarının, idarələrinin yaradılması və maliyyələşdirilməsi qadağandır.

5.4. maddəsində “redaksiya müstəqilliyi” ifadəsinin əvəzinə “media subyektlərinin müstəqilliyi” ifadəsinin işlədilməsi daha məqsədəuyğundur.

Xarici mənbələrdən alınan informasiyanın yayılmasına dair 16.1. maddəsinin aşağıdakı redaksiyada verilməsini təklif edirəm:

16.1. Azərbaycan Respublikası vətəndaşlarının, hüquqi şəxslərinin və media subyektlərinin və xarici mənbələrdən, o cümlədən xarici media subyektlərindən həmin ölkələrin qanunvericiliyi ilə yayılması məhdudlaşdırılmayan məlumatlar əldə etmək hüququ vardır.

16.3. maddəsində qismən dəqiqləşdirilməyə ehtiyac duyulur. Bu maddə yeni redaksiyada aşağıdakı kimi verilə bilər:

16.3. Redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici çap mediası məhsulunun Azərbaycan ərazisində yayılmasına Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda yol verilir. Həmin müqavilələrdə xarici çap mediası məhsulunun yayılması qaydası nəzərdə tutulmadıqda bu məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həll edilir.

Media haqqında qanun layihəsinin 17.5-ci maddəsində müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqanın əhəmiyyətli tədbirlər haqqında siyahını hər il növbəti il üçün elan etməsinə dair tələb əks olunub. Təcrübə göstərir ki, əhəmiyyətli tədbirlərin böyük bir qismi bəzən yeni gündəmə gələn məsələlərlə bağlı olur. Odur ki, bu maddənin aşağıdakı kimi verilməsini təklif edirəm:

17.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) əhəmiyyətli tədbirlərlə bağlı siyahını hər il özlərinin rəsmi internet saytlarında yerləşdirməli və onun müntəzəm olaraq yenilənməsini təmin etməlidir.

Təkzib, düzəliş və cavab vermək hüququnun öz əksini tapdığı 18.3-cü maddənin aşağıdakı redaksiyada verilməsini təklif edirəm:

18.3. Media subyekti tərəfindən cinayət işləri üzrə icraatın mahiyyəti və nəticələri barədə həqiqətə uyğun olmayan və ya təhrif edilmiş məlumatlar verildikdə cinayət prosesini aparan orqan məlumatın təkzib olunması və ya düzəliş verilməsi tələbi ilə həmin media subyektinə müraciət etmək və ya məhkəmə iddiası qaldırmaq hüququna malikdir.

“Media haqqında” qanun layihəsi həm çap mediasının, həm də elektron medianın fəaliyyəti üçün zəruri təminat yaradır, medianın məsuliyyətini artırır. Media Reyestrinin yaradılması, Reyestrə daxil edilmiş jurnalistlərə vahid jurrnalist vəsiqəsinin verilməsi media mühitinin sağlamlaşmasına effektiv təsir göstərəcək. İnformasiyaya dair tələblərin beynəlxalq hüquq təcrübəsi əsasında müəyyənləşdirilməsi müəllif hüququnun qorunması üçün real hüquqi təminat yaradacaq.

Media subyektlərinin və jurnalistlərin hüquqlarının əhatə dairəsinin qanunvericilik yolu ilə təsbit olunmasına sistemli yanaşma, sosial şəbəkənin və “blogger”lərin fəaliyyətinin “Media haqqında” qanunun tətbiq dairəsindən kənarda saxlanması peşəkar medianın nüfuzunun artmasına, ona etimadın güclənməsinə səbəb olacaq.

Əminəm ki, “Media haqında” qanun layihəsi söz və mətbuat azadlığının genişləndirilməsinə, media sahəsində islahatların dərinləşdirilməsinə yönəlmiş yeni çağırışları dolğun ehtiva etməklə yanaşı, peşəkar jurnalistikanın inkişafına, informasiya məkanının təhlükəsizliyinin təmin olunmasına, milli jurnalistika məhsulu istehsalının stimullaşdırılmasına, medianın fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə keçməsinə güclü təkan verəcək, yeniləşməyə əlverişli şərait yaradacaq.

Ədalət naminə etiraf edək ki, Milli Məclisin deputatlarından, ekspertlərdən, Medianın İnkişafı Afentliyinin gənc, istedadlı və işgüzar kollektivinin əməkdaşlarından ibarət işçi qrupu demokratik dəyərləri, media sahəsində mütərəqqi beynəlxalq təcrübəni özündə dolğun əks etdirən ciddi və mükəmməl bir qanun layihəsi hazırlamağa müvəffəq olmuşdur.

Respublikanın nüfuzlu media orqanlarının, müxtəlif qurumların rəhbər şəxslərinin, təmsilçilərinin, ayrı-ayrı kollektivlərin iştirakı ilə dəfələrlə “Media haqqında” qanun layihəsinin müzakirəsi təşkil olunmuş, rəy və təkliflər dinlənilmişdir.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 19-cu maddəsində hər bir şəxsin fikir və ifadə azadlığı hüququ təsbit olunub. Bu müddəa altında şəxsin əqidə azadlığı, həmçinin maneəsiz olaraq istənilən vasitələrlə, sərhədlərdən asılı olmayaraq məlumat almaq və yaymaq hüququ ehtiva edilir. Bu günün prizmasından nəzər salsaq, əvvəlki dövrdə ənənəvi KİV-də interaktivliyin yoxluğu və ya məhdudluğu azlığın öz fikrini çoxluğa diktəsi kimi, yaxud yayım inhisarçılığı kimi dəyərləndirilə bilər. Sosial şəbəkənin və yeni medianın meydana gəlməsi ilə yeni mühit yaranır, klassik medianın əsas cəhəti olan “təkin çoxluğa” diktəsi aradan qalxır və “çoxluğun çoxluğa” qarşılıqlı təsiri ilə əvəzlənir. Bu şəraitdə ənənəvi media dəyişən ortamı düzgün dəyərləndirərək, auditoriyanın tələbatını təhlil etməli, yeni çağırışlara, fərqli modellərə kreativ yanaşma sərgiləməli və öz fəaliyyətini yenidən qurmalıdır. Bu prosesdə qeyri-məhdud imkanlara malik olan internet inteqrator olaraq ənənəvi medianı konvergensiyaya sövq edir.

Vətəndaş jurnalistikasında özünütənzimləmə mexanizminin olmaması onun fəaliyyətinə mənfi təsir göstərir, nəticədə, baş verən hadisələr səthi və yarımçıq işıqlandırılır. Deməli, konvergensiya olunmaqla interaktivlik və operativlik qazanan ənənəvi jurnalistika yaranmış şəraitdə media məkanında yeni qiyafədə üstünlük qazana bilər.

Ali qanunverici orqanın və ictimaiyyətin geniş müzakirəsinə təqdim olunmuş “Media haqqında” qanun layihəsi yeni texnologiyanın yaratdığı fərqli mühitdə bütün media subyektlərinə bərabər imkanlar yaratmaqla onların qarşısında geniş yaradıcılıq və fəaliyyət üfüqləri açır. Konvergensiya prosesinin, rəqəmsallaşma və digitallığın media sistemini tamamilə dəyişəcəyi günümüzün reallığıdır.

***Həsən HƏSƏNOV,***
***“Xalq qəzeti”nin baş redaktoru***